**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**MAHMUDOVA GÜLNAZ HACIÖMƏR QIZI**

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT ALİ TƏHSİL SİSTEMİNDƏ HUMANİTAR SAHƏLƏR ÜZRƏ KADR HAZIRLIĞI (1991- 2005-CI ILLƏR)

5503.02 – «Vətən tarixi»

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2016**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikası tarixi" şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**

*Tarix üzrə elmlər doktoru, professor* **O.B.Sultanov**

**Rəsmi opponentlər:**

*Tarix üzrə elmlər doktoru, professor* **C.M.Cəfərov**

*Tarix üzrə fəlsəfə doktoru* **S. F.Ruintən**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01– "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_17__"_02____ 2016-cı il tarixli iclasında saat ____ keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat " __ "____ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:**

**Tarix üzrə fəlsəfə doktoru:** **C.Ə. Bəhramov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunun aparıcı, strateji istiqamətlərindən biri də ölkəmizdə təhsil sahəsində milli və ümumbəşəri dəyərlər, hüquqi-demokratik, beynəlxalq təhsil standartları çərçivəsində islahatlar aparılması, onun mahiyyətcə milli mənəviyyatımıza, milli ideologiyamıza uyğunlaşdırılmasını həyata keçirməkdən ibarətdir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının, mədəniyyətinin tərəqqisi ilk növbədə ali təhsil ocaqlarında hazırlanmış kadrlardan asılıdır. Ölkəmizdə bazar münasibətlərinin təşəkkül tapması, cəmiyyətin infrastrukturunun getdikcə dəyişməsi, iqtisadiyyatda baş verən dəyişikliklər elm və təhsildə də uyğun dəyişikliklər tələb edir. Bununla bərabər, ali məktəblər-universitetlər, institutlar cəmiyyətin həyatında əhəmiyyətli rol oynayır, ictimai həyatın demokratikləşdirilməsində həlledici amil kimi çıxış edirlər. Bu gün ali təhsil bütün ölkələrin mühüm milli problemlərindən biridir. Dünyada gedən qlobal proseslər, biliyə əsaslanan iqtisadiyyatın sürətli inkişafı, insan kapitalının formalaşması təhsil problemlərini daim diqqətdə saxlamağı tələb edir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev təhsilin cəmiyyətdəki rolunu yüksək qiymətləndirərək demişdir: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”[1]

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli tarix elmi qarşısında duran ən aktual problemlərdən biri milli təhsil sisteminin, xüsusilə də ali təhsil sisteminin tədqiqi həm elmi, həm də siyasi və strateji əhəmiyyət kəsb edir. Totalitar rejimdən yenicə azad olmuş Azərbaycan Respublikasında sovet təhsil sisteminin hüquqi-normativ bazası, tədris-metodiki ədəbiyyat, maddi-texniki baza yeniləşməmişdi. Avropa təhsil sistemindən gerilik, dil maneələrinin aradan qaldırılmaması, təhsil modellərindəki uyğunsuzluq, təhsil sənədlərinin qarşılıqlı tanınması kimi problemlər tədqiqatçıların prioritet araşdırma sahəsi olaraq qalırdı. Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatların işində iştirakı, beynəlxalq müqavilələrə, konvensiya və sazişlərə qoşulması, ABŞ, Avropa, Asiya və MDB ölkələrinin aparıcı ali təhsil ocaqları ilə beynəlxalq əməkdaşlığa qoşulması təhsil tarixinin, o cümlədən ali təhsilin problemlərinin tədqiqini aktuallaşdırdı.

Milli dövlətçiliyin bərpası istər yaxın, istərsə də uzaq perspektivləri

[1]H.Əliyev. Müstəqillik yollarında. Bakı, “Azərbaycan”, 1997, s. 438

baxımından həmin işin uğurlu getməsi son nəticədə insan amilindən, suveren Azərbaycan Respublikası vətəndaşının – azad şəxsiyyətin necə yetişməsi, onun dövlət quruculuğu işlərinə nə dərəcədə fəal qoşula bilməsindən, bu isə öz növbəsində ən kütləvi sosial fəaliyyət formalarından olan təhsilin, xüsusilə də insanı onun gələcək fəaliyyətinin sosial kontekstinə hazırlayan humanitar təhsilin səmərəli təşkil edilib-edilməməsindən asılıdır. Humanitar hazırlıq insanın təfəkkür tərzinin, dünyagörüşü və ideallarının, iradə və hisslərinin formalaşmasında mühüm rol oynayır.

Yeni Azərbaycan dövlətinin humanitar təhsil sistemi tarixin, xüsusən də milli tariximizin ibrət dərslərini nəzərə almaqla sağlam metodoloji zəminə əsaslanmaqla istər məzmununa, istərsə də forma və vasitələrinə görə müasir sivilizasiyanın standartlarına və xüsusiyyətlərinə uyğun surətdə yenilənir.

Dövlət müstəqilliyinin bərpası və tədqiq edilən dövrü əhatə edən 15 il ərzində ölkə təhsil sistemində aparılan yenidənqurma, həyata keçirilən islahatlar, o cümlədən humanitar təhsilin yenidən qurulması üçün görülən işlər və s. məsələlərin hərtərəfli öyrənilməsi mühüm elmi və praktik əhəmiyyət kəsb edir, tədqiqat predmeti kimi seçilmiş mövzunun aktuallığını şərtləndirir.

Seçilmiş mövzunun aktuallığı dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan xalqının mədəniyyətinin və təhsilin inkişaf tarixinin dərindən araşdırılmasının zəruriliyi ilə izah olunur və Azərbaycanda mövcud ali təhsil sisteminin dünya ali təhsil sistemində yerinin dəqiq şəkildə müəyyənləşdirilməsi, ali təhsil müəssisələrinin hərtərəfli şəkildə araşdırılması tarix elmimiz üçün mühüm əhəmiyyət daşıyır.

***Tədqiqatın xronoloji çərçivəsi:*** 1991-ci ildə dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan Respublikasında milli dövlət quruculuğunun başlanmasından və 2005-ci ildə Azərbaycanın Boloniya prosesinə qoşulmasına qədər olan 15 illik dövrü öyrənilməsinə yönəldilmişdir. Tarixi nöqteyi-nəzərdən böyük bir müddət olmayan bu zaman kəsiyi xalqımızın yaşadığı çətinliklər və problemlər, əldə etdiyi uğurlar və nailiyyətlər baxımından çox mühüm bir dövr hesab edilir.

Yeni hüquqi-demokratik dövlət quruculuğu, respublikanı iqtisadi tənəzzüldən qurtarmaq, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq və s. kimi problemlərin həlli həyatın bütün sahələrində köklü islahatlar tələb edirdi. Təhsil sisteminin də belə islahatlara böyük ehtiyacı vardı. Məhz tədqiqat dövrü də Azərbaycanın təhsil sistemindəki islahatlarla səciyyələnir.

***Mövzunun öyrənilmə səviyyəsi:*** Qeyd etməliyik ki, müraciət olunan mövzu indiyədək ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir. Çap olunan əsərlər, əsasən sovet hakimiyyəti dövrünə aiddir. Problemin öyrənilməsinə təşəbbüs göstərilsə də, bu sahədə əsaslı araşdırmalar aparılmamışdır. Təhsilin sosial bir sistem kimi öyrənilməsi, onun iqtisadi aspektinin, maliyyələşmə

xüsusiyyətlərinin təhlili, təhsil sisteminin daxili təşkilati quruluşu və infrastrukturu, müxtəlif təhsil pillələri arasındakı əlaqələr ya çox az öyrənilmiş, ya da tədqiqatdan kənarda qalmışdır.

Müdafiə olunmuş dissertasiyalarda Azərbaycan Respublikasında təhsilin inkişafını şərtləndirən başlıca amillər kadr hazırlığı, tədris və dərs vəsaitlərinin hazırlanması üzə çıxarılmamış, beynəlxalq əlaqələrin təhsilin inkişafındakı mövqeyi işıqlandırılmamış, perspektivlər müəyyənləşdirilməmişdir.

Sovet dövrünün ali məktəb problemlərinin tədqiqi ilə mövzu baxımdan bağlı olan əsərlər arasında A.M.Atakişiyev[2], T.M.Baxşəliyev, T.H.Musayeva, M.N.Salahov, T.S.Kərimova, F.Ş.Məmmədquliyeva və İ.Y.Həsənovun dissertasiyalarını[3] və kollektiv monoqrafiyanı[4] qeyd etmək lazımdır.

Bu monoqrafiya və dissertasiyalarda sovet ali təhsil nəzəriyyəsi və tarixi, onun əsas mərhələləri, ümumi problemləri öyrənilmişdir. Ali təhsillə bağlı yazılanların əksəriyyətində problemin ümumi məsələlərinə toxunulur, tədrisin, təlim-tərbiyənin daxili məsələləri üzə çıxarılmır. Xronoloji baxımdan onlar XX əsrin 40-cı illərindən 80-ci illərin sonunadək olan bir dövrü əhatə edir. Belə bir faktı da diqqətdən kənar qoymaq olmaz ki, Azərbaycan müstəqil deyildi, ittifaq hökuməti respublikanın ali məktəblərinin topladığı elmi və tədris potensialından öz siyasi-iqtisadi maraqlarının təmin edilməsi üçün yararlanırdı.

Tarix elmi sahəsində obyektiv araşdırmalar aparılması üçün şərait yalnız Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra yarandı. Müstəqillik şəraitində keyfiyyətcə yeni metodoloji əsaslarla yazılmış elmi araşdırmalar meydana çıxdı.

---

[2] Atakişiyev A.M. Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi. Bakı, 1991

[3] Бахшалиев Т.М. Развитие высшего образование в Азербайджане, в условиях развитию социализма (1966-1970). Автореф. дисс. на соиск.учен. степ. канд. ист. наук. Баку, 1980; Керимова Т.С. Подготовка и повышение квалификации научных и научно-педагогический кадров в Азербайджанской ССР (1971-1980). Автореф. дисс. на соиск. учен. степ. канд. ист. наук. Баку,1987; Мусаева Т.Н. Революция и народные образование в Азербайджане (1920-1940 гг). Автореф. дисс. на соиск. учен. степ. док. ист. наук. Баку,1980; Мамедкулиева Ф.Ш. Дальнейшее развитие высшего и среднего образование в Азербайджанской ССР (1971- ). Автореф. дисс.насоиск. учен. степ. канд. ист. наук. Баку, 1983; Салахов М.Н. Высшее образование в Азербайджанской ССР в период развития социализма (1945-1980). Автореф. дисс. на соиск.учен. степ. док. ист. наук. Баку,1990

[4] Развитие высшей школы Советском Азербайджане. Баку, 1984

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etməsi ali təhsil sahəsinin təşəkkülü və inkişafı, onun nəzəri və praktiki problemləri, o cümlədən dünya və Avropa təhsil məkanına inteqrasiyasına dair elmi araşdırmalar aparılması prosesini sürətləndirdi. Bu baxımdan ilk növbədə M.C.Mərdanov, A.Z.Mehrabov, R.Ağamalıyev, Ş.Əsgərov, S.Xəlilovun [5] Azərbaycan təhsilinin tarixinə, təhsilin inkişafına, kadr hazırlığı, təhsil sahəsində həyata keçirilən islahatlara və s. həsr edilmiş monoqrafiyaları, məqalələri xüsusi qeyd olunmalıdır. Bu əsərlərdə Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatlar, bu sahədə görülməkdə olan işlər, həyata keçirilmiş tədbirlər, müasir model və mexanizmlər şərh olunmuşdur.

Azərbaycan alimlərinin kollektiv araşdırmalarının nəticəsi kimi çap olunan monoqrafiyalar ali təhsilin inkişafının ayrı-ayrı aspektlərinə, bu sistemə keyfiyyətcə yeni elementlərin (bakalavriat, magistratura, doktorantura və s.) daxil edilməsinə, onun Avropa standartlarına uyğunlaşdırılmasına həsr edilmiş əsərlər və dissertasiyalar [6] seçdiyimiz mövzu ilə bağlı bir çox məsələlərin nəzəri-metodoloji baxımdan öyrənilməsi üçün böyük əhəmiyyət

---

[5] Mərdanov M.C. Azərbaycanın təhsil sistemi, Bakı,” Təhsil”, 2005; Yenə onun: Azərbaycanın təhsili dünən, bu gün, sabah. Bakı, ”Təhsil”, 2006; Yenə onun: Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, ”Çaşıoğlu”, 2009; Yenə onun: Azərbaycan təhsil tarixi. IV cilddə, Bakı, “Təhsil”, 2012; Yenə onun: Davamlı inkişaf və təhsil. Bakı, ”Çaşıoğlu”, 2007; Mehrabov A.Z. “Çoxpilləli təhsil sistemində kadr hazırlanmasının bəzi problemləri. ”Azərbaycan Respublikası Təhsil cəmiyyəti”. Bilgi dərgisi (təhsil, mədəniyyət, incəsənət), 2001, № 2; Ağamalıyev R.A. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı, “Təhsil”, 1998; Əsgərov Ş.Təhsilimiz: dünən, bu gün və sabah. Bakı, Azərbaycan nəşriyyatı, 2003; Xəlilov S.S. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 1999; Yenə onun: “Təhsildə problemlər, vəzifələr” Bakı, ”Azərbaycan Universiteti” nəşriyyatı, 2002; Yenə onun: “Təhsil, təlim, tərbiyə” Bakı “Azərbaycan Universiteti” nəşriyyatı, 2005

[6] Mərdanov M., M.Ağamalıyev R. və b. Azərbaycan təhsili islahat illərində. Bakı, ”Təhsil”, 2001; Mərdanov M.C., Şahbazlı F. Azərbaycanın təhsil siyasəti (1998-2004), Bakı, ”Çaşıoğlu”, 2005; Əliyev İ.Z., Cəfərov C.M. “Avropada Boloniya prosesi və onun Azərbaycanda perspektivləri”, Bakı, “Ulu” İKF, 2009; Mahmudov C.M. ” Dünyada və Azərbaycanda təhsil sistemi”, AzTU-nun nəşri, 2005; Boloniya prosesi və Azərbaycan. Bakı, ”ADPU”-nun mətbəəsi. 2008; Azərbaycanın Boloniya prosesinə daxil olmasının reallığa çevrilməsi. AzTU-nun nəşri, 2009; Əliyev İ.Z., Cəfərov C.M. “Avropada Boloniya prosesi və onun Azərbaycanda perspektivləri”, Bakı, “Ulu” İKF, 2009; Mahmudov C.M. ” Dünyada və Azərbaycanda təhsil sistemi”, AzTU-nun nəşri, 2005; Boloniya prosesi və Azərbaycan. Bakı, ”ADPU”-nun mətbəəsi. 2008; Azərbaycanın Boloniya prosesinə daxil olmasının reallığa çevrilməsi. AzTU-nun nəşri, 2009

kəsb edir.

Göstərilən dövrün səciyyəvi xüsusiyyətləri ən yaxşı öz əksini tarixçi alimlərin əsərlərində tapmışdır. T.ü.e.d. prof. T.B. Qaffarovun tarixşünaslığımızda ilk dəfə dövrün xarakteristikasını verən ümumiləşmiş əsərlərində[7] həmin dövrlərdə Azərbaycan Respublikasında baş verən mühüm ictimai-siyasi hadisələrlə yanaşı mədəniyyət və təhsil sahəsində həyata keçirilən tədbirlər öz əksini tapmışdır.

Bu əsərlərdə ətraflı olmasa da tədqiq olunan dövrdə təhsilimizin vəziyyəti, bu sahədə həyata keçirilən tədbirlər nəzərdən keçirilir ki, dissertasiya işində yeri gəldikcə müraciət edilmişdir.

Dissertasiyada t.ü.e.d. prof.O.B.Sultanovun monoqrafiyasından[8] dövrün səciyyəvi xüsusiyyətlərini işıqlandırmaqda istifadə edilmişdir. Kitabda öz əksini tapmış milli hərəkat, dövlət müstəqilliyimizin bərpası, 90-cı illərin əvvəllərinin əsas xüsusiyyətləri diqqətimizi cəlb etmişdir.

Dissertasiya işində istifadə edilən ədəbiyyatlardan biri də 7 cildlik “Azərbaycan tarixi”nin VII cildidir. Kitabda sovet hökumətini bürüyən böhran, onun çökmə səbəbləri, Azərbaycanda milli-azadlıq hərəkatının güclənməsi, dövlət müstəqilliyimizin bərpası, sosial-iqtisadi, dövlət quruculuğu sahəsində islahatların keçirilmə zəruriliyi və s. məsələlər haqqında dəyərli ümumiləşdirmələr öz əksini tapmışdır. Həmin kitabdan ali təhsilimizlə bağlı fakt və məlumatlardan istifadə edilmişdir.

***Tədqiqatın mənbə bazası:*** Arxiv sənədləri, ölkədə ali təhsil sistemi ilə bağlı qəbul edilmiş qanunlar, Azərbaycan Dövlət Statistika Komitəsinin nəşr olunmuş məcmuələri dissertasiyanın mənbəşünaslıq bazasını təşkil edir.

Mövzunun tədqiqi ilə bağlı ən çox müraciət olunan Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxividir. Burada mühafizə olunan ali təhsil müəssisələrinin illik hesabatları və tədqiqat dövrünün əvvəllərinə aid müxtəlif hesabatlar, icra sənədlərindən işdə geniş istifadə olunmuşdur. Bundan əlavə, respublikanın aparıcı ali məktəblərinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Pedaqoji Universiteti və başqa ali təhsil müəssisələrinin cari arxivlərindən istifadə olunmuşdur.

Tədqiqi ilə məşğul olunan problemin araşdırılmasında Azərbaycan Dövlət Statistika Komitəsinin nəşr etdirdiyi statistik məcmuələrdən[9] geniş

---

[7] Qaffarov T.B. Azərbaycan tarixi(1920-1991). Bakı, Mütərcim; Yenə onun: Azərbaycan Respublikası. Əsrə bərabər on il (1991-2001). Bakı, ”Tural-Ə”

[8] Sultanov O.B. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, “Maarif”, 1995

[9] Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. Bakı, ”Səda”, 1998; Azərbaycanda təhsil, elm,

istifadə olunmuşdur. Bu məcmuələr ali təhsil müəssisələri, kadrların say tərkibi və s. məsələləri müəyyən etməyə imkan vermişdir.

İşdə bir mənbə kimi Azərbaycan Respublikası Prezidentinin fərmanlarından, sərəncamlarından, Təhsil Nazirliyinin əmr və sərəncamlarından, kollegiya qərarlarından da istifadə edilmişdir. Bütün dissertasiya boyu müxtəlif dövrü mətbuat orqanlarından da dəyərli fakt və məlumatlar götürülmüşdür.

***Tədqiqatın məqsəd və vəzifələri:*** Dissertasiyada qarşıya qoyulan əsas məqsəd mövcud mənbələr və ədəbiyyat əsasında ali təhsil sistemində, xüsusilə də humanitar profilli ali təhsil sistemimizdəki problemlər, onların həlli üçün yenidənqurmaya və islahatlara olan ehtiyacın səbəbləri, onların həyata keçirilməsi sahəsində görülən işlər və s. tədqiqidir. Bu məqsədi həyata keçirmək üçün tədqiqatda aşağıdakı məsələləri kompleks şəkildə təhlil etmək vəzifə kimi qarşıya qoyulmuşdur:

- Azərbaycan Respublikasında XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəlləri üçün formalaşmış ali təhsil sisteminin vəziyyəti;
- Təhsil sistemimizdə islahatların səbəbləri;
- 1992-2005-illərdə ali təhsil sahəsində həyata keçirilən islahatların qanunvericilik əsaslarının yaradılması;
- Ali təhsil müəssisələrinin madd-texniki bazası və maliyyə islahatı çərçivəsində maliyyələşmə mexanizmlərinin tətbiqi məsələləri;
- Azərbaycan Respublikası ali təhsil sisteminin ikipilləli sistemə (bakalavr-1993; magistr-1997) keçidi, bakalavr və magistrlərin hazırlanması məsələləri;
- Ali təhsilin məzmununun müəyyənləşdirilməsində əsas rol oynayan təhsil plan və proqramları və ali məktəblər üçün dərslik yaradılması;
- Təhsil sistemimizdə kadr hazırlığı;
- Təhsilin keyfiyyət və kadr hazırlığı ilə bağlı olan vəzifələrin respublikanın ali təhsil sistemində yerinə yetirilməsi prosesi;
- Azərbaycan Respublikasının Boloniya prosesinə qoşulması (2005) prosesi;
- Azərbaycan Respublikasının Boloniya prosesinə qoşulmasının müsbət və mənfi nəticələrini təhlil etmək;
- Humanitar profilli məktəblərin yüksək ixtisaslı professor-müəllim heyəti ilə təmin edilməsi və onların ixtisas biliklərinin artırmalarının forma və üsulları;

---

mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. Bakı, ”Səda”, 2001; Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. ”Səda”, Bakı, 2006

- Əhəmiyyətli ola biləcək təkliflər irəli sürmək;

***Dissertasiya işinin metodoloji əsası:*** Dissertasiyanın metodoloji əsasını tarix elminin qərarlaşmış prinsipləri, elmi obyektivlik, tarixilik, problem üzrə fakt və məlumatların kompleks şəkildə araşdırmaya cəlb edilməsi, tədqiqat dövrünə qədərki vəziyyət, onu doğuran səbəblər və mümkün nəticələr təşkil edir. Tədqiqat prosesində müqayisəli təhlil metoduna daha çox müraciət edilmiş, problemin bütün mühüm aspektləri MDB-yə daxil olan ölkələrin təhsili, inkişaf etmiş Avropa ölkələrinin təhsili ilə yeri gəldikcə müqayisəli təhlil üsulu ilə araşdırılmış, nəzəri üümumiləşdirmələr aparılmış və müvafiq elmi nəticələr çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi:**

- Arxiv materiallarının elmi dövriyyəyə cəlb edilməsi nəticəsində 1991-ci ildən 2005-ci illin sonuna qədər  Azərbaycan Respublikasının dövlət ali təhsil sistemində humanitar sahələr üzrə kadr hazırlığının tarixi tədqiq olunmuşdur;

-Sovet imperiyası dövründən qalma çatışmamazlıqlar, problemlər şərh edilmişdir;

-Dövlət müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycan Respublikası ali təhsil sistemində olan çatışmamazlıqlar nəzərdən keçirilmişdir;

-Azərbaycan Respublikası dövlət ali təhsil sisteminin humanitar sahələrində islahatların labüdlüyü fakt və məlumatlarla əsaslandırılmışdır;

-Keçiriləcək təhsil islahatlarının qanunvericilik bazasını təşkil edən bir çox qanunlar, fərmanlar, sərəncamlar və qərarlar elmi cəhətdən ilkin olaraq təhlil edilmişdir;

-İlk dəfə olaraq, bütöv şəkildə fakt və məlumatlar əsasında ali təhsilin maddi-texniki bazası, kadr hazırlığı şərh edilmişdir.

-Təhsildə adambaşına maliyyələşdirməyə keçid məsələləri təhlil edilmiş və bu keçidin zəruriliyi əsaslandırılmışdır.

-Müqayisəli təhlillər əsasında ali təhsilin inkişafının optimallaşdırılması yolları göstərilmişdir.

-Ali təhsil sistemində tədqiqat dövründə görülən tədbirlər haqqında sənədlər tarixi dövriyyəyə gətirilmişdir;

- Dissertasiya işinin yazılmasında istifadə olunmuş arxiv materialları və statistik mənbələrdən götürülmüş çoxsaylı rəqəmlərin böyük bir hissəsi demək olar ki, ilk dəfə elmi dövriyyəyə cəlb edilmişdir.

***Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti***: Dissertasiya işinin əsas müddəalarından və nəticələrindən istifadə oluna bilər.

-Azərbaycan Respublikasının təhsil tarixinə, xüsusən də dövlət müstəqilliyimizin bərpasından sonrakı dövr tarixinə dair tədqiqat əsərləri

yazılarkən;

-Təhsil tariximizə dair ümumiləşdirilmiş əsərlər yazılarkən;

-Ali təhsil müəssisələrində Azərbaycanın müasir tarixi ilə bağlı mühazirələrin oxunması, xüsusi kursların keçirilməsi zamanı;

-Təhsil işçiləri və Azərbaycanın modernləşdirilməsi tarixini öyrənmək istəyən hər bir oxucu üçün bu maraqlıdır. Ümumiyyətlə, tarix və təhsillə maraqlanan hər bir vətəndaş bu tədqiqat işindən səmərə əldə edə bilər.

***Tədqiqatın aprobasiyası:*** Dissertasiya Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Respublikası tarixi" şöbəsində müzakirə olunub müdafiəyə təqdim olunmuşdur. İşin əsas müddəaları və nəticələri müəllif tərəfindən Azərbaycan və rus dilində nəşr edilən 7 adda məqalədə öz əksini tapmışdır.

***Dissertasiyanın quruluş:*** Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində müraciət olunmuş mövzunun aktuallığı əsaslandırılır, tarixi-xronoloji çərçivəsi göstərilir, mövzunun öyrənilmə dərəcəsi araşdırılır, araşdırmanın məqsəd və vəzifələri müəyyənləşdirilir, mənbə bazası təhlil edilir, nəzər-metodoloji bazasının icmalı verilir. Girişdə, həmçinin, əldə olunan elmi yeniliklər verilir, tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti qeyd edilir, tədqiqi və quruluşu haqqında məlumat verilir.

**"Müstəqillik illərində ali təhsil sistemində kadr siyasəti"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. **Birinci yarımfəsil "Ali təhsil sistemində kadr hazırlığının normativ-hüquqi bazasının yaradılması**" adlanır.

Təhsil sistemimizdə islahatların uğurla həyata keçirilməsi üçün hər şeydən əvvəl onun hüquqi bazasının yaradılması tələb olunurdu.

16 dekabr 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə "Azərbaycan Respublikasının Təhsil Qanunu" [10] qüvvəyə mindi. AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Y.M.Mahmudovun rəhbərliyi ilə hazırlanmış bu qanunun qəbulu ilə Azərbaycan Respublikasında beynəlxalq standartlara uyğun təhsil sisteminin əsası qoyuldu.

"Təhsil Qanunu" (1992) ilə təhsil sistemimizdə bir çox yeniliklər - çoxpilləli ali təhsil, qeyri-dövlət təhsil sisteminin yaradılması, yeni tipli təhsil kompleksləri, təhsildə sahibkarlıq münasibətləri, təhsil müəssisələrinin yüksək müstəqillik hüququ və s. həyata vəsiqə almışdır.

1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının

---

[10] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Fond 2941, siy., 1, iş 58, s. 56

Konstitusiyasının 42-ci maddəsində[11] Azərbaycan Respublikası vətəndaşlarının təhsil hüquqları öz əksini tapmışdır.

Konstitusiyadakı bu müddəalar təhsil sisteminin inkişafı üçün onun dünya standartlarına uyğunlaşması üçün verilən qanunların əsası oldu.

Təhsil Qanununa əsasən Nazirlər Kabineti və Təhsil Nazirliyi milli, regional xüsusiyyətləri, eləcə də dünyanın qabaqcıl ölkələrinin təhsil sistemlərinin təcrübəsini nəzərə almaqla təhsilin normativ-hüquqi bazasını yaratmaq istiqamətində iş aparmağa başladılar, bir sıra qanunvericilik aktları, normativ sənədlər qəbul edildi: Azərbaycan Respublikası ali təhsilin çoxpilləli strukturu haqqında müvəqqəti Əsasnamə (Təhsil Nazirliyinin 07.05.1993-cü il tarixli Əmri); Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı (Nazirlər Kabinetinin 13.03. 1993- cü il tarixli Qərarı)[12]; Ali təhsil haqqında Əsasnamə (Nazirlər Kabinetinin 30.03. 1995-ci il tarixli Qərarı); "Çoxpilləli ali təhsil sistemində bakalavr hazırlığı haqqında Əsasnamə" (Nazirlər Kabinetinin 22.10.1995-ci il tarixli Qərarı), "Çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə" (Nazirlər Kabinetinin 13.02.1995-ci il tarixli Qərarı)[13] və s.

1992-ci ildə qəbul olunmuş Təhsil Qanunu keçid dövründəki vəziyyəti əks etdirirdi. Müstəqilliyin ilk illərində qəbul edildiyindən və artıq xeyli vaxt keçdiyindən ölkənin inkişaf perspektivləri, təhsil sahəsində aparılan islahatlar, beynəlxalq təcrübə, dünya birliyinə inteqrasiya meylləri baxımından kifayət qədər təkmil deyildi.

Ölkəmizin mövcud iqtisadi-siyasi durumu, dünya birliyinə daha çox inteqrasiya olunduğu bir dövrdə təhsil sahəsindəki irəliləmə və beynəlxalq təcrübənin daha çox öyrənilməsi üçün Təhsil Qanununun yenidən işlənməsinə və təkmilləşməsinə ehtiyac yaranmışdı.

Milli Məclisin Elm və Təhsil Komissiyasının üzvləri və təhsil mütəxəssislərindən ibarət işçi qrupu tərəfindən 1999-cu ildə Təhsil Qanunun yeni variantı hazırlandı. Son illərdə üzə çıxan bir sıra problemlərin də öz hüquqi həllini tapa bilməsi üçün yeni varianta xeyli müddəalar daxil edildi.

Belə ki, layihədə idarəetmənin müasir prinsipləri, bələdiyyə təhsili, təhsil müəssisələrinin dövlət qeydiyyatı, akkreditasiya, attestasiya, lisenziyalaşdırma kimi reqlamentlərin tətbiqi, təhsil müəssisələrinin müstəqilliyi, onları sahibkarlıq fəaliyyəti və s. kimi yeni məsələlər layihədə öz əksini tapmışdır.

---

[11] Azərbaycan Respublikasının Konstitusiyası Bakı, 1997, s.11

[12] Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxivi (bundan sonra-ARTNA). f.1, siy., 2, iş 11, v. 2-5

[13] ARTNA. f. 1, siy., 2, iş 13, v. 2-3

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 30 mart 1998-ci il "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamı[14] və 15 iyun 1999-cu il tarixli "Təhsil sahəsində islahat Proqramı"[15] Azərbaycan təhsilinin uzun illər üçün gələcək inkişafının yeni strategiyası oldu. İslahat Proqramında təhsil islahatının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu.

İslahat Proqramında müəyyənləşdirilən istiqamətləri gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman[16] imzaladı.

28 noyabr 2003-cü ildə Azərbaycan Respublikasının prezidenti İ. Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafı sürətləndirmək tədbirləri haqqında" fərman[17] imzalamışdır

Fərmanda 2004-2008-ci illərdə təhsil sistemində görüləcək işlərin planı, təhsil sisteminin inkişaf proqramı təsdiq edilmişdir.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra dünya birliyinə, Avropaya sıx inteqrasiya xəttini götürdü, Avropanın bir sıra strukturlarında təmsil olundu.

Ölkə Prezidentinin 06 mart 2000-ci il tarixli "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncamı ilə Azərbaycan diplomların və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında konvensiyaya qoşuldu[18] və bu prosesin həqiqi üzvü seçildi.

2003-cü ildə Azərbaycan Respublikası Nazirlər kabineti "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Qaydalarını"[19] təsdiq etdi.

**"Ali təhsilin maddi-texniki bazasının yenidən qurulması"** adlanan ikinci yarımfəsildə yüksək səviyyəli kadr hazırlığı üçün təhsil müəssisələri

---

[14] Azərbaycan Respublikasının təhsil qanunvericiliyi külliyyatı. Azərbaycan Beynəlxalq Universiteti, Bakı, 2001, s. 9

[15] Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I c. Bakı, "Şərq-qərb" nəşriyyat evi, 2012, s. 124

[16] Azərbaycan Respublikası Qanunlar Külliyatı. III c. Bakı, "Qanun", 2001, s. 648

[17] "Xalq" qəz., Bakı, 2004, № 39

[18] Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I c. Bakı, "Şərq-qərb" nəşriyyat evi, 2012, s. 435

[19] Yenə orada, s. 543

müasir tələbata tam uyğun maddi-texniki bazaya malik olmasının vacib olduğu əsaslandırılır.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə yaranmış ağır iqtisadi-siyasi vəziyyət ali təhsil müəssisələrinin maddi-texniki bazasının müasir elmi-texniki tərəqqinin səviyyəsinə uyğun olaraq yaxşılaşdırılmasına öz mənfi təsirini göstərdi.

Təhsil müəssisələrinin maddi-texniki bazasının qeyri-qənaətbəxş vəziyyətdə olması maliyyə çətinliklərini aradan qaldırmaq üçün əlavə büdcədənkənar mənbələrin tətbiq edilməsi zərurətini yaratdı.

Maliyyə çətinliklərini aradan qaldırmaq üçün Azərbaycan Respublikası prezidentinin 24 oktyabr 1994-cü il tarixli, "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı[20] ilə Respublika Təhsil nazirliyinə 1995-ci ilin 1 yanvar tarixindən təsərrüfat hesabı prinsipləri ilə işləyən tədris müəssisələrinin sayının artırılmasını tapşırıldı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası müəssisələrində ödənişli əsaslarla təhsil qruplarının yaradılması haqqında" 23 dekabr 1993-cü il tarixli 630 saylı qərarına müvafiq olaraq respublikamızın təhsil müəssisələrində ödənişli əsaslarla təhsil qrupları yaradıldı[21]

Ödənişli əsaslarla təhsil qruplarının yaradılması təhsil müəssisəsinin büdcədənkənar xüsusi vəsaitlər üzrə gəlirlərinin xeyli artırdı. Buna misal olaraq göstərmək olar ki, 2000-ci ildə Təhsil Nazirliyinin tabeliyindəki ali məktəblərə büdcədənkənar daxil olan vəsait respublika büdcəsindən onlara ayrılan məbləğdən 34 faiz çox olmuşdur[22].

Universitetlərin əldə etdikləri büdcədənkənar vəsaitlər onların saxlanılmasının və inkişaf etdirilməsinin əsas amili olmuşdur.

Azərbaycan Respublikasında təhsil şəbəkəsi geniş və əhatəlidir. 1991-ci ildə 18, 2005-ci ildə isə 27 dövlət ali təhsil müəssissəsi fəaliyyət göstərirdi[23].

Büdcədənkənar vəsaitlər hesabına təhsil müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirmək üçün mühüm işlər görülmüşdür. Belə ki, ali məktəblərin demək olar ki, hamısında əsaslı təmir işləri aparılmış, yeni texniki vasitələr və avadanlıqlar alınmışdır.

Bakı Dövlət Universitetinin bütün tədris binalarında aparılmış təmir işləri başa çatdırılmışdır. BDU müasir avadanlıqlarla təchiz olunmuş,

---

[20] Azərbaycan Respublikası Qanunlar Külliyatı. I c. Bakı, "Qanun", 2001, s. 235
[21] ARTNA. f. 1, siy., 2, iş 11, v. 1
[22] ARTN. İqtisadiyyat idarəsinin cari arxivi. 1998-2002-ci illər, v.5
[23] Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. Bakı, "Səda", 1998, s. 122

laboratoriyalar, kompüter mərkəzi, elmi kitabxana mərkəzi və s. zəngin infrastruktura malikdir, bütün fakültələrində kompüter sinifləri fəaliyyət göstərir.

Universitetdə bütün strukturları birləşdirən 152 dayaq nöqtəsinə malik lokal kompüter şəbəkəsi, "İnternet" sistemi yaradılmış, onun vasitəsilə dünyanın tanınmış universitetləri ilə əlaqələr yaradılmışdır[24].

2000-2005-ci illərdə ADPU-nun maddi-texniki bazası nəzərə çarpacaq dərəcədə möhkəmlənmişdir. Belə ki, ADPU-nun üç tədris binasında təmir işləri aparılmış, təkcə 2002-ci ildə ümumi dəyəri 3 milyon 24 min olan inventar və avadanlıq alınmışdır. 2003-2005-ci illərdə 186 kompüter və 439, 964, 205 min manatlıq inventar-avadanlıq alınmışdır. Aparılan təmir-bərpa işləri hazırda davam etdirilir[25].

Dövlət Dillər Universitetində tədris binası, kafedra və auditoriyalar təmir olunmuşdur. 2004-cü ilin yanvarında 2500 tələbə üçün nəzərdə tutulmuş 5 mərtəbəli dördüncü tədris binasının tikintisinə başlanıldı.

Yüksək səviyyəli mütəxəssis hazırlığı məqsədi ilə Dillər Universiteti müasir avadanlıqlarla təchiz olunmuş, Kompüter mərkəzi, elmi kitabxana mərkəzi, dil laboratoriyaları və s. ibarət geniş infrastruktura malikdir. Bütün struktur bölmələr müasir kompüterlər və digər texniki vasitələrlə təchiz olunmuşdur. 2002-ci ildə Universitet internetə qoşulmuşdur və onun imkanlarından istifadə edir[26].

Bakı Slavyan Universitetinin bütün struktur bölmələri, kabinet və auditoriyalarında təmir işləri aparılmış zəruri avadanlıqlarla, kompüterlə təchiz olunmuşdur. Tədrisi keyfiyyətcə yüksəltmək, onun elmi, texniki və metodiki bazasını müasir tələblər bazasında qurmaq məqsədilə universitet özünün Elmi Kitabxana Mərkəzini yaratmış, onu kompüterlə təchiz etmişdir[27].

**Üçüncü yarımfəsil "Çoxpilləli təhsil sisteminə keçid"** adlanır. Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatının təşəkkülü və yeni iqtisadi münasibətlərin yaranması, ölkəmizin dünya birliyinə inteqrasiyası tamamilə yeni tip kadrların hazırlanması zərurətini ortaya çıxardı.

1993-cü ildən respublikamızın ali məktəblərində çoxpilləli ali təhsil-

---

[24] Bakı Dövlət Universitetinin cari arxivi. Təsərrüfat hissəsinin materialları. 2000-2002, v. 7-8

[25] ADPU-nun cari arxivi. Təsərrüfat hissəsinin materialları. 2001-2003-cü illər, v.2-4

[26] Əliyev Ə. Azərbaycan Dövlət Dillər Universitetinin tarixi. Bakı, Azərnəşr, 2005, s. 139-153

[27] Bakı Slavyan Universiteti. Bakı, "Kitab aləmi", 2003, s. 29-36

dörd illik bakalavr və iki illik magistr sistemi təşkil olundu[28].

1993-cü ildə ilk dəfə olaraq 23 ali təhsil ocağında 80 istiqamət, 300-dən çox ixtisas üzrə bakalavr səviyyəsinə tələbə qəbulu aparıldı. 13600 gənc bakalavr səviyyəsində təhsilə cəlb olundu[29].

1995-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi "Çoxpilləli ali təhsil sistemində bakalavr hazırlığı haqqında Əsasnamə"də deyilirdi: "Bakalavr ali təhsilin çoxpilləli strukturunun birinci pilləsində müəyyən baza təhsili istiqamətlərini və ya konkret ixtisaslar üzrə hazırlıq proqramını həyata keçirir"[30]

Əsasnamənin təsdiqindən sonra ali təhsil müəssisələrinin rəhbərlikləri tələbələrin "bakalavr" pilləsi üzrə hazırlanması üçün zəruri olan proqramlar paketini hazırladılar.

Təhsil Nazirliyi "Ali baza təhsili proqramlarının həyata keçirilməsinin nizamlanması haqqında" 1997-ci il 31 yanvar tarixli sərəncam verdi[31].

1997-ci il martında Nazirlər Kabineti "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı" haqqında Qərarı təsdiq etdi. Qərarda bakalavr təhsil səviyyəsi üzrə 105 istiqamət və həmin istiqamətlər daxilində 515 ixtisas nəzərdə tutulmuşdu.

Təhsil Nazirliyində "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu" hazırlandı və 1997-ci ilin aprelində təsdiq olundu. Həmin struktur təsdiq edildikdən sonra mütəxəssislərin iştirakı ilə ali məktəblərdə bakalavr hazırlığı aparılan bütün istiqamətlər (ixtisaslar) üzrə standartlar, habelə standartlara uyğun ali baza təhsil proqramları və fənn proqramları hazırlandı və nazirliyin əmri ilə təsdiq edildi[32].

Ali təhsil müəssisələrinin bakalavr pilləsini bitirənlər magistr pilləsində təhsillərini davam etdirə bilərlər. Magistraturaya qəbul planı müvafiq istiqamətlər üzrə bakalavr buraxılışının 20%-ə qədərini təşkil edir.

1997-ci ildə ilk bakalavr buraxılışından ölkəmizdə ali təhsilin ikinci-magistratura pilləsinə keçid oldu.

1997-ci ildə başlayaraq Nazirlər Kabinetinin razılığı əsasında 23 dövlət ali məktəbində müvafiq istiqamətlər üzrə bakalavr buraxılışının 20 faizə qədəri şərti gözlənilməklə magistraturaya qəbul keçirilmişdir.

---

[28] Azərbaycan tarixi (7 clddə), VII cild, Bakı, "Elm" , 2003, s. 446

[29] Abituriyent jurnalı. 2004/2005-ci tədris ili üçün tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlili. Bakı, 2004, № 12, s. 27

[30] ARTNA. f. 1, siy., 2, iş 11, v. 1

[31] ARTNA. f. 1, siy., 2, iş 13, v. 2

[32] ARTN. Ali və orta ixtisas idarəsinin cari arxivi.1998-2002-ci illər, v. 5

Bu pillədə mütəxəssis hazırlığının əsas məqsədi bu və ya digər sahələr üzrə yüksək ixtisas dərəcələri verməklə gələcək tədqiqatçılar və ali məktəblər üçün elmi-pedaqoji kadrlar yetişdirməkdən ibarətdir.

Nazirlər Kabineti 13 fevral 1997-ci ildə "Çoxpilləli ali təhsil sistemində magistr hazırlığı haqqında (magistratura) Əsasnamə"ni təsdiq etdi.

Təhsil Nazirliyinin 19 iyun 1997-ci il tarixli əmri ilə ali məktəblər üzrə magistr hazırlığına icazə verilmiş magistr proqramlarının siyahısı dərc olundu. Müvafiq siyahıda magistr hazırlığına icazə verilmiş 26 ali məktəbdən 23-nə tələbə qəbulu aparmaq üçün 69 istiqamətdə 375 ixtisaslaşma müəyyən edildi.

Yüksək keyfiyyətli magistr hazırlığını təmin etmək üçün bu pillədə tədrisin məzmunu və onun müasir tələblərə uyğun qurulması çox zəruri idi. Bazar iqtisadiyyatının və xüsusilə də əmək bazarının tez-tez dəyişən tələbatına uyğun geniş profilli mütəxəssislər hazırlanmasını təmin etmək məqsədilə ali təhsilin klassifikatoruna yenidən baxıldı. 1999-cu ildə ali təhsil müəssisələrinə ilk dəfə olaraq istiqamətlər üzrə tələbə qəbulu aparıldı. Tələbə qəbulu əvvəlki illərdən fərqli olaraq 306 ixtisas əvəzinə 92 istiqamət üzə aparılmağa başlandı. Humanitar sahələr üzrə 15 istiqamətdə (46 ixtisas üzrə) mütəxəssis hazırlığı həyata keçirilirdi[33]

"Magistr hazırlığı haqqında Əsasnamə"yə görə magistr hazırlığı magistrlik dissertasiyasının müdafiəsi ilə yekunlaşdırılır.

1998-ci ildə "Magistrlik dissertasiyalarının hazırlanması, təsdiq olunması və müdafiəsi qaydaları haqqında" və "Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar haqqında" əsasnamələr hazırlanaraq təsdiq edildi[34].

Magistr dissertasiyasının müdafiəsi magistrin müstəqil elmi-tədqiqat işi aparmağa və öz şəxsi yanaşması ilə qarşıya qoyulan problemi həll etməyə qadir olmasına təminat verməlidir.

Dissertasiyanın **II fəsli "Ali təhsilin humanitar sahələrində kadr hazırlığı"** adlanır və üç yarımfəsildən ibarətdir. **"Tələbə qəbulu və biliyin qiymətləndirilməsi sahəsində islahatlar"** adlı birinci yarımfəsildə ali təhsil müəssisələrinə tələbə qəbulu və biliyin qiymətləndirilməsi sahəsində həyata keçirilmiş islahatlar təhlil edilmişdir. Qeyd edilir ki, təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası dünyada qəbul olunmuş test sisteminin ölkəmizdə də tətbiqini zəruri etdi.

Ali və orta təhsili müəssisələrinə qəbul zamanı tələbə qəbulu işini mərkəzləşdirilmiş qaydada həyata keçirmək üçün Azərbaycanda 1992-ci ildə

---

[33] ARTNA. f. 1, siy., 2, iş 65, v.9

[34] Azərbaycan Respublikasının təhsil qanunvericiliyi külliyyatı. Azərbaycan Beynəlxalq Universiteti, Bakı, 2001, s. 352-359

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 1992-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə" təsdiq edildi. 1992/93-cü tədris ilində TQDK tərəfindən ilk tələbə qəbulu keçirildi[35].

TQDK tələbə qəbulu ilə əlaqədar bütöv bir elmi-metodiki, təşkilati tədbirlər kompleksi hazırlayıb həyata keçirir. Buraya testlərin qəbulu, müzakirəsi, ekspertizası, qəbul proqramlarının tətbiqi, testlər bankının zənginləşdirilməsi, metodiki ədəbiyyatın hazırlanması, nəşri, yayımı və s. daxildir.

Testin əsas məğzi və qayəsi bundan ibarətdir ki, eyni ixtisaslara yiyələnmək istəyən şəxslər üçün bərabər imkanlar, bərabər şərait yaradılır, onların qarşısında eyni imtahan tələbləri qoyur və cavablarının qiymətləndirilməsi prosesi vahid meyarlar əsasında, heç bir kənar təsir olmadan kompüter vasitəsilə aparılır. Bu yolla imtahan prosesində subyektivlik faktoru aradan götürülür, hər bir şəxs ali məktəbə öz bilik və bacarığı sayəsində qəbul olmaq imkanı qazanır. Test üsulu hər şeydən əvvəl Azərbaycan təhsil sistemində kök salmış neqativ halların aradan qaldırılmasına istiqamətləndirilmişdir. Təhsildə biliyin yeganə və etibarlı dəyərləndirmə vasitəsi olan test üsulu tələbə kontingentinin daha bilikli və istedadlı gənclərdən təşkil edilməsi üçün geniş imkanlara malikdir.

Ali təhsil sistemində həyata keçirilən islahatların bir istiqaməti də tələbələrin biliyinin qiymətləndirilməsində atılan addımlardır.

Təhsil sistemimizin Avropa və dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiyası bu sistemə yeni, daha mütərəqqi elementlərin gətirilməsi zəruriliyini yaratdı. Uzun illərin müşahidəsi göstərdi ki, ali təhsil məktəblərində tələbələrin biliyinin qiymətləndirilməsində mövcud nəzarət mexanizmi və əksər xarici ölkələrin artıq imtina etdiyi 5 ballı sistem özünü doğrultmur. İnkişaf etmiş ölkələrin bir çoxunda tələbələrin biliyinin qiymətləndirilməsi üçün kredit-bal sistemi mövcuddur. Bu sistemin, konkret desək 100 ballı sistemin üstünlüyü ondadır ki, onun 50 balı tələbənin semestr ərzindəki göstəricilərini əks etdirir, qalan 50 bal isə imtahanın nəticələrinə görə verilir.

Tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistemin üstünlüklərini nəzərə alaraq ali təhsil məktəblərində yeni qiymətləndirmə texnologiya-

---

[35] Abituriyent jurnalı. Elmi-statistik araşdırma: faktlar, məlumatlar, tövsiyələr. Bakı,1997, №1, s. 6

sına-çoxballı sistemə keçildi. "Tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistem haqqında müvəqqəti Əsasnamə" (10 avqust 1999)[36] təsdiq edildi.

Əsasnamə təsdiq edildikdən sonra 10 ali məktəbdə 10 istiqamət (ixtisas) - BDU-da "Biologiya", ADPU-da "Tarix", ADDU-də "Dilşünaslıq" və s. istiqamətləri üzrə tətbiq edildi.

Sonrakı illərdə eksperimentin tətbiq dairəsi genişləndirildi, eksperiment aparılan ali məktəblərin sayı 16-ya, istiqamətlərin sayı 40-a, ixtisasların sayı 80-ə çatdırıldı. Eksperimentə cəlb olunmuş tələbələrin sayı 30 mindən çox idi[37].

**İkinci fəslinin ikinci yarımbölməsi "Tədris prosesinin təşkili və məzmununun təkmilləşdirilməsi"** adlanır. Müstəqillik dövrünün başlanğıcını təşkil edən 1991-ci ildən keçən müddətdə Azərbaycan ali məktəbində keçmiş sovet ideologiyasının təsirindən xilas olma, ali təhsilin məzmununda milli dəyərlərlə bəşəri prinsiplərin tarazlığının müəyyən edilməsi, milli maraq və mənafelərinə cavab verən yeni dərsliklərin hazırlanması istiqamətləri üzrə tədbirlər həyata keçirilməkdədir.

İqtisadi, sosial-siyasi, mənəvi sahələrdə baş verən ciddi və prinsipial dəyişikliklər humanitar elmlərin tədrisinin məzmununda dəyişiklikləri zəruri etmışdir.

Ali təhsil islahatının prinsipcə zəruri hissələrindən biri humanitar və qeyri-humanitar profilli ali məktəb tələbələri üçün humanitar təhsilin yeni sisteminə kecilməsindən ibarətdir.

Respublikamızda bu sahədə mühüm işlər görülmüş, humanitar elmlərin tədrisinə diqqət artırılmışdır. Təhsil Nazirliyinin xüsusi ekspert qrupu tərəfindən "Ali məktəblərdə humanitar elmlərin tədrisi və tədqiqinin təkmilləşdirilməsi Konsepsiyası" işlənib hazırlandı. 1995-ci ilin yanvarında Təhsil Nazirliyi "Ali məktəblərdə humanitar elmlərin tədrisinin və tədqiqinin təkmilləşdirilməsi konsepsiyasının tətbiqi barədə" Qərar qəbul etdi[38].

Peşə-ixtisas sahəsində aparılan islahatlar proqramına uyğun olaraq yeni proqramlar və humanitar profilli xeyli dərslik hazırlandı, onlardan bir qismi ("Azərbaycan tarixi", "Azərbaycanın fiziki coğrafiyası", "Fəlsəfə", "Sosiologiya", "Politologiya" və s.) nəşr edildi. Ali təhsil proqramına uyğun olaraq

---

[36] Azərbaycan Respublikasının təhsil qanunvericiliyi külliyyatı. Azərbaycan Beynəlxalq Universiteti, Bakı, 2001, s. 327

[37] ARTN. Ali və orta ixtisas idarəsinin cari arxivi.1998-2002-ci illər. v. 5

[38]ARTN.Ali və orta ixtisas təhsili idarəsinin cari arxivi. Ali məktəblərdə humanitar elmlərin tədrisi və təkmilləşdirilməsi konsepsiyasının tətbiqi barədə. 25.01.1995-ci il tarixli Kollegiyasının materialları,v. 4

1000-dən artıq proqram yeniləşdirildi, ən zəruri fənlər üzrə 100-ə yaxın dərslik, dərs vəsaiti çap edildi[39].

Mütəxəssislərin iştirakı milli ideologiya və dövlətçilik prinsipləri əsasında, beynəlxalq standartlara uyğun dərslik komplektlərinin müsabiqə əsasında yaradılmasını, nəşrini və təhsil müəssisələrinin onlarla təminatını nəzərdə tutan "Dərslik Proqramı" hazırlandı.

Ali təhsil üçün 3000-nə yaxın fənn proqramı, 250-dən artıq tədris-metodik ədəbiyyat, 400-dən çox dərslik və dərs vəsaiti nəşr olunub. 1997-1999-cu illərdə təkcə humanitar elmlər üzrə 183 adda proqram, 145 dərs vəsaiti, 22 adda dərslik nazirliyin elmi-metodik bölmələrinin ekspertizasından keçmiş və onlara qrif verilmişdir[40].

Azərbaycanda formalaşan bazar iqtisadiyyatı şəraitində müxtəlif ixtisaslar üzrə ali təhsilli mütəxəssislər hazırlanmasının əhəmiyyəti artır.

Müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq təcrübənin və yeni iqtisadi-siyasi sistemin doğurduğu yeniliklərdən biri də özəl təhsil sisteminin yaranması olmuşdur. 1992-ci ildə qəbul olunmuş "Təhsil qanunun"da bu məsələyə xüsusi yer verildi ölkədə özəl təhsil sisteminin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılması istiqamətində ilk addım atıldı. Ölkəmizdə özəl təhsil müəssisələri 90-cı illərin əvvəllərində yarandı.

Bu sistemin zəruriliyi yüksək ixtisaslı kadr hazırlığı istiqamətində rəqabət aparmaq, təhsilin tədris təşkilati-strukturlarında çevik qərar qəbul etmək və yeni təsərrüfat fəaliyyəti sahələri üzrə universal peşə sənətinə malik olan kadr hazırlığı ilə bağlıdır.

Özəl təhsil müəssisələrinin yaradılmasında əsas məqsəd 90-cı illərin əvvəllərində böhran keçirən dövlət ali təhsil müəssisələrinə yarış və rəqabət xarakteri verəcək və bununla da təhsilin keyfiyyətinin yüksəldilməsinə gətirib çıxaracaq yeni ruhlu, sağlam təhsil sistemi hazırlamaq idi.

Hər bir ölkədə özəl təhsil müəssisələrinin bütövlükdə təhsil sistemində özünəməxsus yeri və funksiyaları vardır. O sahələr üzrə ki, kadr hazırlığına cəmiyyətdə maraq var və əhali təhsil haqqını ödəməyə hazırdır, həmin sahələrdə kadr hazırlığı özəl təhsil müəssisələrinin öhdəsinə buraxılır. Məsələn, hüquqşünas və iqtisadçı hazırlamaq üçün dövlət pul xərcləmir. O sahələrdə ki, kadr hazırlığı böyük xərc tələb edir və əhali təhsil haqqını ödəməkdə maraqlı deyil, həmin sahələri dövlət öz üzərinə götürür[41].

---

[39] ARTN. Ali və orta ixtisas idarəsinin cari arxivi.1998-2002-ci illər, v. 12

[40] Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009, s. 46

[41] Xəlilov S. S. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 1999, s. 72

Respublikada özəl təhsil müəssisələrində daha çox hüquq, sosiologiya, siyasət və iqtisad ixtisasları üzrə fakültə və ixtisaslar var. Onların əksəriyyəti dövlət təhsil müəssisələrini təkrarlayır. Təkcə 1998-1999-cu tədris ilində özəl ATM-lərdə hüquq ixtisası üzrə 12,9, iqtisadçı ixtisası üzrə 6,2 min, pedaqoji ixtisaslar üzrə 3,8 min nəfər tələbə təhsil alırdı ki, bu da müvafiq olaraq bütün tələbələrin sayının 53,3; 26,6; 15,7 faizini təşkil edirdi[42].

Yuxarıda göstərilən rəqəmlərdən göründüyü kimi, ölkəmizdə təhsil müəssisələrində kadr hazırlığı eyni ixtisaslar üzrə bir-birini təkrarlayır. Tədqiqat göstərir ki, özəl təhsil ocaqlarının böyük əksəriyyəti kadr hazırlığında rəqabət təşkil etmək və ona qoşulmaq üçün real vəziyyətdən çox uzaqdır.

Azərbaycanın formalaşmaqda olan Avropa ali təhsil məkanına yaxınlaşması 2005-ci ildə Boloniya prosesinə qoşulmasından sonra daha məqsədyönlü və konkret istiqamət almağa başladı.

Boloniya sisteminə qoşulmaqla Azərbaycan təhsili ali ixtisas təhsilinin modernləşdirilməsini sürətləndirmək, ali məktəblərimiz Avropa komissiyası və beynəlxalq donor fondları tərəfindən maliyyələşən birgə Avropa layihələrində iştirak etmək, tələbə və müəllimlər isə Avropa universitetləri ilə akademik mübadilə aparmaq imkanları əldə etmişdir.

**İkinci fəslin "Elmi-pedaqoji kadr hazırlığı"** adlanan üçüncü yarımfəslində elmi-pedaqoji kadrların hazırlanması məsələləri araşdırılmışdır. Qeyd olunur ki, tədqiq etdiyimiz dövrdə elmi-pedaqoji kadrların hazırlanmasının sürətləndirilməsi və onların keyfiyyətcə daha yüksək pilləyə qaldırılması zəruriliyi barədə ayrı-ayrı hökumət qərarlarında və s. ötəri deyilsə də bu mühüm məsələyə xüsusi diqqət və qayğını ifadə edən ayrıca qərar verilməmişdir.

Respublikada hələ aspirantura yolu ilə kadr hazırlanmasına dair dövlət proqramı qəbul edilməmişdir və bu sistemin fəaliyyətini tənzimləyən yeni hüquqi və normativ sənədlər yoxdur. Aspirantların təhsilinə, onların sosial problemlərinə laqeydlik bu dövlət əhəmiyyətli sahənin işinin müasir tələblər səviyyəsində qurmağa imkan verməmişdir. Bu qayğısız münasibətin məntiqi nəticəsi olaraq elmi və elmi-pedaqoji kadrlar hazırlamağın əsas vasitəsi olan aspiranturalarda oxuyan aspirantların sayı 90-cı illərin əvvəllərində tədricən azalmışdır. Əgər 1985-ci ildə Təhsil Nazirliyi sisteminə daxil olan 9 ali məktəb aspiranturasına 500-ə yaxın aspirant cəlb olunmuşdusa, 1995-ci ildə 16 ali məktəb aspiranturasına həmin sayda aspirant daxil olmuşdur. 1994-1995-ci illərdə isə aspiranturaya qəbul zamanı hüquq, tarix və iqtisadiyyat

---

[42] Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Bakı, 2000, s.187

ixtisaslarından başqa digər ixtisaslara müsabiqə olmamışdır. Bir yerə bir namizəd vermişdir, 20 yer boş qalmışdır.

Respublikanın ali məktəblərində təhsil alan aspirantların sayı 1980-ci ildə 642, 1990-cı ildə 555[43], 1995-ci ildə 573, 2000-ci ildə 484, 2005-ci ildə 640 olmuşdur. Ali məktəblərinin nəzdində 1990-cı ilədək 9 aspirantura fəaliyyət göstərirdi. Aspiranturaların sayı 1995-2000-ci illərdə 18, 2005-ci ildə 25 olmuşdur[44].

Aspirantların miqdarının azalması həm də keçid dövrünün çətinlikləri ilə əlaqədar idi. Ali məktəblərin maddi-texniki bazası zəifləmiş, çap imkanları məhdudlaşmış, alimə, aspiranta dövlət qayğısı heçə enmişdir. Cüzi miqdarda təqaüd alan aspirant dissertasiyasını yazdırıb cildlətdirmək, avtoreferat çap etdirmək və s. üçün vəsait tapa bilmirdi.

Aspirantların sayının azalmasına magistratura sisteminin tətbiq olunması, aspirantura sisteminin gələcəkdə ləğv olunması da təsir göstərmişdir.

2005-ci ildə aspiranturanı bitirənlərin sayı 129 nəfər olmuşdur. Humanitar elm sahələri üzrə isə 62 nəfər bitirmişdir. Aspiranturanı humanitar sahələr üzrə bitirən aspirantlar (48%) sayca üstünlük təşkil etmişdir[45]

Dissertantura yolu ilə də elmi kadrlar hazırlanırdı. Buraya bir qayda olaraq, pedaqoji staj, müstəqil elmi iş aparmaq qabiliyyəti olan adamlar cəlb edilirdilər.

Təhsil Qanununa (1992) əsasən aspirantura sistemi ləğv edilməli və onun əvəzinə magistr sistemi tətbiq edilməli idi. Lakin qanunun bu bəndi dövrün reallıqlarını əks etdirmədiyindən fəaliyyət göstərə bilmədi. Belə ki, bu qanuna görə magistraturanı müvəffəqiyyətlə bitirən mütəxəssis artıq doktorluq (respublikamızda elmlər namizədi) elmi dərəcəsinə malik olurdu. Təbii ki, bu elmi dairələrdə narazılıqla qarşılandı. Çünki, respublikamızda nə ali təhsil sisteminin vəziyyəti, nə də buraxdığı kadrların təhsil səviyyəsi buna imkan vermirdi. Qanun daxili vəziyyəti nəzərə almadan xarici təcrübəyə əsasən qəbul edilmişdi və ölkəmizdəki reallıqları əks etdirmirdi. Dünya ölkələri təcrübəsində magistratura pilləsi eyni zamanda elm istiqamətli, real bir pillə məzmununa malikdir.

Ciddi elmi tədqiqat işləri sayılan namizədlik və doktorluq dissertasiyasından fərqli olaraq magistr dissertasiyası tələbənin müstəqil elmi-tədqiqat işi olmaqla yanaşı eyni zamanda özündə artıq məlum olan elmi nəticələrin modelinin qurulması məsələlərini əks etdirən tədris-tədqiqat işidir.

---

[43] ARTN. Elm idarəsinin cari arxivi. 1998-2002-ci illər, v. 2-3

[44] Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. ”Səda”, Bakı, 2006, s. 266-267

[45] Yenə orada, s. 268-272

Magistr hazırlığında əsas problemlərdən biri ali məktəb üçün müəllim kadrları hazırlanması ilə bağlıdır. Burada söhbət elmi-pedaqoji fəaliyyətinə istiqamətlənmiş yüksək ixtisaslı kadrların yetişdirilməsindən gedir.

Aspiranturanın analoqu Qərb ölkələrinin təhsil sistemində yoxdur. Elmi yaradıcılıq üçün zəruri olan biliklərin tədrisi və imtahan verilməsi isə magistraturada keçilmiş olur.

Ölkəmizdə isə magistratura bir təhsil pilləsi olaraq aspiranturanı əvəz edir, lakin bir tədqiqat pilləsi olaraq əvəz etmir. Belə ki, magistraturada müdafiə olunan tədqiqat işinə qoyulan tələblər aşağı olur. Bu bir növ ciddi yazılmış diplom işinə uyğun gəlir.

Sovet təhsil sistemində mövcud olan aspirantura sistemi dünyada olan təhsil sistemlərdən biridir və hər bir sovet aliminin formalaşmasında böyük rol oynamışdır. Məhz bunun nəticəsində sovet elmi dünyanın ən aparıcı elmlərindən biri olmuşdur.

Uzun illər elmi kadrlar hazırlığında özünü doğrultmuş bu sistem ləğv olunarsa, onun yerini dolduracaq heç bir təhsil sxemi yoxdur. Çünki elmi hazırlığın əsası aspiranturada qoyulur.

Respublikamızda magistratura sistemi hələ tam formalaşmamışdır. Bir çox ali məktəblərdə yaradılan magistraturanın əsl magistraturaya heç bir oxşarlığı yoxdur. Əslində, magistraturanı bitirənlərin tədqiqatçılıq səviyyəsi də müasir tələblərə cavab vermir.

Aspiranturanın ləğvi və elmi kadrların hazırlanması yolları ilə bağlı təkliflərin bir zaman Azərbaycanda tətbiq olunması, bəlkə də, məqsədəuyğun olacaq. Lakin bu yalnız o zaman olacaq ki, inkişaf etmiş ölkələrdə mövcud olan və elmin inkişafını təmin edən, Azərbaycanda isə hələlik olmayan bir çox şərtlər burada da yetişmiş olsun.

Respublikamızda yüksək ixtisaslı kadrların hazırlanması üzrə fəaliyyət göstərən təhsil forması doktorantura sistemidir. 1991-ci ildə ali məktəblərdə 3, 1994-cü ildə isə cəmi 1 doktorantura olmuşdur[46]. Həmin ildə doktoranturaya qəbul olmamışdır.

1998-ci ildə isə doktoranturası olan ali məktəblərin sayı 11-ə yüksəlsə də, 2000-ci ildə onların sayı yenidən azalaraq 8 olmuşdur. 2001-ci ildə 3 ali təhsil müəssisəsində doktorantura sistemi ləğv edilmişdir[47].

Təhlil göstərir ki, Azərbaycanda elmin inkişafına yönəldilmiş xərclər Ümumi Daxili Məhsula nisbətdə 1990-cı ildə 1,0 faiz, 1991-ci ildə 0,8, 1995-

---

[46] ARTN. Elm idarəsinin cari arxivi. 1998-2002-ci illər, v. 4-5

[47] Azərbaycanda təhsil, elm, mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. ”Səda”, Bakı, 2006, s. 316

ci ildən 2005-ci ilədək 0,2 faiz olmuşdur[48]. İnkişaf etmiş dünya ölkələrində isə (ABŞ, Fransa, Kanada və s.) elmə ayrılan vəsait büdcənin 4-6 faizini təşkil edir. 1999-cu ildə ABŞ-da bir elmi işçiyə ayrılan vəsait 180 min dollar təşkil etmişdir. Avropa ölkələrində bu rəqəm 50-60 min ABŞ dollarına bərabərdir. Azərbaycanda isə bir elmi işçiyə ayrılan vəsait 800-900 ABŞ dolları təşkil edirdi[49]

Cüzi əmək haqqı və iş yerlərinin məhdudluğu bir çox alimləri başqa sahələrə üz tutmağa və ya Azərbaycandan çıxıb getməyə vadar edirdi. «Beyin axını nəticəsində ali məktəblər hər il onlarla alimi itirirdi. Bunun nəticəsində illər ərzində yaranmış elmi məktəblər dağılır, yaranmış iqtisadi və sosial problemlər elmin inkişafına, yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasına, yenidən hazırlanmasına mənfi təsir göstərmişdir.

Nəzərdən keçirdiyimiz dövrdə respublikamızda ixtisasartırmanın müxtəlif formalarından-təcrübə keçmək, qiyabi aspirantura, müəllimlərin elmi işçi vəzifələrinə keçirilmələri, yaradıcılıq məzuniyyətləri və ixtisasartırma kimi formalarından istifadə edilmişdir. Məhz sonuncunun vasitəsi ilə elm və texnika sahəsindəki yenilikləri öyrənmək təcrübəsi daha mühüm əhəmiyyət kəsb etmişdir. Ümumilikdə pedaqoji kadrların yenidənhazırlanması 7 təhsil müəssisəsində (ADPU, ADU, BSU, Azərbaycan Müəllimlər İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Universiteti, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu) aparılırdı.

Müstəqilliyin ilk illərində ali məktəblərin professor-müəllim heyəti 3 aylıq ixtisasartırma təhsilinə cəlb olunurdular. Lakin respublikamızın tədris müəssisələrində 1991-1994-cü illərdə ixtisasartırmadan keçən dinləyicilərin sayı nəinki artmış əksinə xeyli azaldı. Bunun əsas səbəbi respublikamızda ixtisasartırma sisteminin pozulması və ali məktəblərə kadrların ixtisasının artırılması üçün kifayət qədər maliyyə vəsaitinin ayrılmaması olmuşdur.

İxtisasartırma və yenidənhazırlanma təhsili ilə 3 institut, kadrların ixtisasartırma və yenidənhazırlanma təhsili ilə məşğul olan 11 ali məktəb fakültəsi; ali məktəblərdə 68 baza kafedrası məşğul olur[50].

1998-ci ildən etibarən ixtisasartırma sahəsində islahatların aparılmasına başlanılmışdır. 1998-2000-ci illər ərzində ixtisasartırma və yenidən hazırlanma təhsilinin yeni əsaslarla müasir mexanizmlərə uyğun qurulması üçün 35 adda tənzimləyici sənədlər hazırlandı, ayrı-ayrı mərhələləri özündə

---

[48] Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. BMT İnkişaf Proqramı. Bakı, 1998, s. 42

[49] Azərbaycan qəz., Bakı, 1998, 6 iyun

[50] ARTN. 08.10.2003-cü il tarixli Kollegiyasının materialları, v. 4

əks etdirən mexanizm və modellər verildi[51].

**“Nəticə”** hissəsində dissertasiya işinin məqsəd və vəzifələrindən irəli gələn ümumiləşdirmələr aparılmış, tədqiqat prosesində əldə olunan nəticələr verilmiş, yeni elmi fikir və təkliflər öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır**.


1. İkipilləli təhsil sisteminə keçid: bakalavr və magistrlərin hazırlanmasi // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri, xüsusi buraxılış, Bakı, 2009, 27-ci c., s.183-187
2. Dövlət ali təhsil müəssisələrində elmi və elmi pedaqoji kadr hazırlanmasının bəzi məsələlərinə dair (1991-2005-ci illər) // “Bakı Univesitetinin xəbərləri”, Humanitar seriya, Bakı, 2009, № 2, s.186-192
3. Boloniya prosesi və Azərbaycanın ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi // Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri, Bakı, 2010, 35-ci cild, s.157-161
4. Qloballaşma dövründə ali təhsilimiz // Bakı, “Tarix və onun problemləri” jurnalı, Bakı, 2014, № 3, s.225-230
5. Müəllimlərin təkmilləşdirilməsi və ixtisasartırma təhsilində yeni mexanizmlərə keçid // Azərbaycanşünaslıqın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V beynəlxalq elmi konfransın materialları, Bakı, 2014, s.430-432
6. К вопросу усовершенствования обучения в высшем образовании Азербайджанской Республики // “The Cavcasus and the world” jurnalı, Tibilisi, 2014, № 17, s.74-79
7. Maddi-texniki baza yüksək ixtisaslı kadr hazırlanmasının əsas amilidir // Pedaqoji Universitet xəbərləri. Bakı, 2014, № 4, s.122-124


[51] ARTNA. f. 1, siy., 2, iş 52, v. 4-6

**G.H.Mahmudova**

# THE PERSONNEL TRAINING ON THE HUMANITIES IN THE STATE HIGHER EDUCATION SYSTEM OF AZERBAIJAN REPUBLIC IN 1991- 2005 YEARS

## SUMMARY

In the dissertation for the first time in modern Azerbaijani historiography as a special object of study is dealt with the issues of development of higher humanitarian education in the years of independence.

In the study of this problem have been widely used archival materials, published statistical collections and published legal documents, existing literature and periodicals.

The dissertation consists of the introduction, two chapters, conclusion and bibliography.

In the introduction of the thesis is justified its scientific and practical importance and actuality, the chronological framework, defined the goal and objectives, shown the sources and degree of the topic's studying, and noted its scientific innovation.

The first chapter of the thesis is called "The personnel policy in the higher education system in the years of independence." This chapter examines the creation and improvement of normative and legal framework of the reforms carried out in the area of higher education; works implemented on the reorganization of material-technical base of higher educational institutions; the transition to the multi-stage -"bachelor-master" training system of the specialists.

The second chapter is called "The training of highly qualified specialists with higher education in the area of humanities." It analyzes the organization of students' admission by test method, the transition to a 100-point rating system of students' knowledge, measures to improve the content and improve the level of education and personnel training, the progress and shortcomings in this area. This chapter also investigates the scientific and pedagogical training of personnel in post-graduate and doctoral courses, as well as through further training.

The "Conclusion" of the dissertation summarizes the main theses of the research, sums up the work done and according to the conclusion obtained as a result of it, given the relevant recommendations.

**Г.Г.Махмудова**

# ПОДГОТОВКА КАДРОВ В ГУМАНИТАРНЫХ ОБЛАСТЯХ В ГОСУДАРСТВЕННОЙ СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2005 гг.)

## РЕЗЮМЕ

В диссертации впервые в современной азербайджанской историографии в качестве специального объекта исследования рассматриваются вопросы развития высшего гуманитарного образования в годы независимости.

Исследование состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении диссертации обосновываются ее научно-практическое значение и актуальность, хронологические рамки, определены цель и задачи, показаны источники и степень изученности, отмечена научная новизна темы.

Первая глава диссертации называется «Кадровая политика в системе высшего образования в годы независимости». В этой главе исследуются вопросы создания и усовершенствования нормативно-юридической базы проводимых в области высшего образования реформ; работы, проведенные по реорганизации материально-технической базы высших учебных заведений; переход к системе «бакалавр-магистр» подготовки специалистов.

Вторая глава называется «Подготовка высококвалифицированных кадров с высшим образованием в гуманитарных областях». Здесь анализируются организация приема студентов тестовым методом, переход к 100-бальной системе оценки знаний студентов, мероприятия по усовершенствованию содержания и повышению уровня образования и подготовки кадров, достигнутые успехи и допущенные недостатки в этой области. В этой главе также исследуется вопросы подготовки научно-педагогических кадров (аспирантура, докторантура), а также вопросы повышения их квалификации.

В «Заключении» диссертации обобщены основные положения исследования, подведен итог проделанной работе и согласно выводам, полученным в результате его, даны соответствующие рекомендации.

Formatı: 60x90 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**ГЮЛЬНАЗ ГАДЖИОМАР гызы МАХМУДОВА**

# ПОДГОТОВКА КАДРОВ В ГУМАНИТАРНЫХ ОБЛАСТЯХ В ГОСУДАРСТВЕННОЙ СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2005 гг.)

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2016**